

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 229 (24.366)

*9 dekabr 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Avropa Şurasının Baş katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriçi qəbul edib.

Mariya Peyçinoviç Buriç Azərbaycanın 2001-ci ildən Avropa Şurasının dəyərli üzvü olduğunu vurğuladı. O, ölkəmiz tərəfindən Avropa Şurasının bir çox konvensiyasının imzalandığını və ratifikasiya edildiyini, bir müddət əvvəl Azərbaycan tərəfinin Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyasını imzaladığını xatırladı və bütün bunları müsbət addım kimi dəyərləndirdi. Avropa Şurasının Baş katibi qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatları yüksək qiymətləndirir.



Azərbaycanın regionda davamlı sülhün təmin edilməsi istiqamətində atdığı addımları təqdir etdiklərini deyən Mariya Peyçinoviç Buriç bu xüsusda Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında qəbul olunmuş birgə bəyanatı və bundan irəli gələn məsələləri, xüsusilə iki ölkə arasında etimad quruculuğu tədbirləri istiqamətində atılan addımları yüksək qiymətləndirdiklərini bildirdi, Azərbaycan ilə Ermənistan arasında etimad quruculuğu proseslərinə Avropa Şurasının töhfə verməyə hazır olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Şurası arasında bu illər ərzində çox sıx əməkdaşlığın formalaşdığını qeyd etdi. Prezident İlham Əliyev özünün Avropa Şurası ilə əlaqələrini və Azərbaycan nümayəndə heyətinin AŞPA-dakı fəaliyyətini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında qəbul olunmuş birgə bəyanat qarşılıqlı sülh gündəliyinin irəli aparılması və ölkələrimiz arasında münasibətlərin normallaşdırılması üçün qarşılıqlı siyasi iradənin bir daha nümayişidir. Dövlətimizin başçısı vurğuladı ki, Avropa Şurası da iki ölkə arasında etimad quruculuğu proseslərinə töhfə vermək üçün çox yaxşı platformadır.

Söhbət zamanı AŞPA-da Azərbaycan və Ermənistan parlament nümayəndə heyətləri arasında da əlaqələrin və konstruktiv dialoqun vacibliyi bildirildi. Praktiki sahələrdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın inkişaf etdiyi qeyd olundu.

Görüşdə mədəniyyətlərarası dialoq prosesində Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığa toxunuldu, bu əməkdaşlığın davam etdirilməsinin önəmi vurğulandı. Ölkəmizdə ənənəvi keçirilən mədəniyyətlərarası dialoq forumunda Avropa Şurasının tərəfdaş qismində çıxış etməsinin, həmçinin Avropa Şurasında islamofobiya meyillərinə qarşı xüsusi nümayəndənin təyin olunmasının təqdir edildiyi bildirildi.

**AZƏRTAC**

## Səlahiyyətli nümayəndə Azərbaycan mədəniyyət naziri ilə görüşüb

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasında səfərdə olan Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli ilə görüşüb.

Görüşdə muxtar respublika ərazisində tarixi-memarlıq abidələrinin qorunması ilə bağlı səylərin birləşdirilməsi, abidələrin daha peşəkar şirkətlər tərəfindən bərpasının təmin edilməsi üçün ümumi tender prosedurlarının nəzərdən keçirilməsi məsələləri müzakirə olunub. Qeyd olunub ki, bərpa işlərinə peşəkar şirkətlərin cəlb olunması prosesin daha etibarlı və uyğun şəkildə aparılmasına şərait yaradar.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na uyğun olaraq Naxçıvan şəhərində yaradılması nəzərdə tutulan “Naxçıvanın 7 incisi” turizm kompleksi, Ordubad rayonu ərazisindəki Xaraba Gilanın bərpası və Ordubadın tarixi abidələri ilə bağlı məsələlər müzakirə olunub. Bu istiqamətdə birgə addımların atılması barədə fikir mübadiləsi aparılıb.

**“Şərq qapısı”**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2014-cü il 14 may tarixli 111-IV FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2014-cü il 14 may tarixli 111-IV FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. 5.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

“5.4. Nazirin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunan iki müavini vardır. Nazir müavinləri nazirin onlara həvalə etdiyi vəzifələri yerinə yetirirlər və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.”.

2. 5.5.2-ci yarımbənddə “müavinin” sözü “müavinlərinin” sözü ilə əvəz edilsin.

3. 5.7-ci bənddə “müavininə” sözü “müavinlərindən birinə” sözləri ilə əvəz edilsin.

4. 5.8-ci bəndin birinci cümləsində “müavinindən” sözü “müavinlərindən” sözü ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 8 dekabr 2023-cü il*

## A.C.İsmayılovun Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Abbas Cəlil oğlu İsmayılov Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini təyin edilsin.

2. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini Abbas Cəlil oğlu İsmayılova həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 8 dekabr 2023-cü il*

## A.C.İsmayılovun Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Abbas Cəlil oğlu İsmayılov Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 8 dekabr 2023-cü il*

## T.V.Əliyevin Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Tapdıq Vaqif oğlu Əliyev Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 8 dekabr 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin yeni üzvlərinin seçilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 41.2-ci maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aşağıdakı deputatları Ali Məclisin İqtisadi siyasət komitəsinin üzvü seçilsinlər:

Bağırsoylu Hüseyn Qədirulla oğlu,
Zeynalov Azər Yadulla oğlu.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 8 dekabr 2023-cü il*

# Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının növbəti iclası keçirilib





Dekabrın 8-də Ali Məclis sədrinin müavini Anar İbrahimovun sədrliyi ilə altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının növbəti iclası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, Naxçıvan Muxtar Respublikası Baş naziri tərəfindən Ali Məclisə yeni təqdimat daxil olub. Həmin təqdimatda Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin vəzifəsindən azad olunması təklif edilir. Buna müvafiq olaraq həmin məsələ gündəliyə əlavə edilib.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilib:

1. "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (birinci oxunuş)
2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin yeni üzvlərinin seçilməsi
3. Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin vəzifəsindən azad olunması
4. Cari məsələlər





Gündəlikdə duran birinci məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, 28 noyabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 26-cı maddəsi və 32-ci maddəsinin 9-cu bəndini rəhbər tutaraq və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu maddəsinə uyğun olaraq "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsini Ali Məclisə təqdim edib. Qanun layihəsi ilə bərabər büdcə zərfinə daxil olan digər sənədlər də parlamentə daxil olub, materiallar dərc edilərək deputatlara və büdcə müzakirələrinin digər iştirakçılarına verilib. Bundan başqa, 30 noyabr 2023-cü il tarixdə qanun layihəsi Ali Məclisin və Nazirlər Kabinetinin rəsmi orqanı olan "Şərq qapısı" qəzetində dərc edilib, qəzetin internet resursunda yerləşdirilərək ictimai müzakirəyə təqdim olunub. 4 dekabr 2023-cü il tarixdə muxtar respublika parlamentinin Daxili Nizamnaməsinə əsasən aparıcı komitə təyin olunan Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayevin sədrliyi ilə "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsinin müzakirəsi üçün Ali Məclis komitələrinin muxtar respublikanın aidiyyəti dövlət orqanlarının nümayəndələrinin və digər rəsmi şəxslərin iştirakı ilə birgə iclası keçirilib. Birgə iclasda aparılmış müzakirələrdən sonra büdcə layihəsinin altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclasına təqdim olunması qərara alınıb.

Qanun layihəsi barədə Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Həsən İsmayılov məlumat verərək bildirib ki, 2024-cü il büdcə layihəsində gəlirlər 173 milyon 105 min manat proqnozlaşdırılır ki, bu da 2023-cü ilin büdcə gəlirləri ilə müqayisədə 20 milyon 883 min manat və ya 13,7 faiz çoxdur. Nəzərdə tutulan gəlirlərin 164 milyon 75 min manatı və ya 94,8 faizi Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların payına düşür ki, bu, 2023-cü illə müqayisədə 17 milyon 193 min manat və ya 11,7 faiz çoxdur. Büdcə gəlirlərinin 5 milyon manatı və ya 2,9 faizi gömrük orqanları tərəfindən təmin edilən daxilolmaların payına düşür ki, bu da 2023-cü illə müqayisədə 3 milyon 850 min manat və ya 4,3 dəfə çoxdur. Gəlirlər üzrə proqnozun 4 milyon 30 min manatının və ya 2,3 faizinin büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxil olması proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 160 min manat və ya 3,8 faiz azdır. Növbəti ildə Naxçıvan şəhəri, Babək, Şərur və Kəngərli rayonlarının büdcələri dotasiyasız olmaqla, Ordubad, Culfa, Şahbuz, Sədərək rayonlarının büdcələri isə muxtar respublikanın mərkəzi xərclərindən dotasiya ayrılmaqla planlaşdırılır.

Nazir müavini qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcə layihəsində xərclər 516 milyon 365 min manat məbləğində proqnozlaşdırılır ki, bu, 2023-cü ilin büdcə xərcləri ilə müqayisədə 88 milyon 648 min manat və ya 14,7 faiz azdır. Büdcə xərclərinin 458 milyon 692 min 950 manatı, yaxud 88,8 faizi cari xərclər üzrə, 57 milyon 672 min 50 manatı və ya 11,2 faizi isə əsaslı xərclər üzrə proqnozlaşdırılır. Təhsil və səhiyyə sahəsində Dövlət proqramlarının maliyyə təminatının həyata keçirilməsi məqsədilə təhsil sisteminin informasiyalaşdırılması, texniki peşə təhsilinin inkişafı tədbirləri və STEAM təlim-tədris mərkəzi üçün 1 milyon 161 min 237 manat, şəkərli diabet, xroniki böyrək çatışmazlığı, hemofiliya, talassemiya və səhiyyə sahəsindəki digər tədbirlər üçün 5 milyon 55 min 605 manat vəsait nəzərdə tutulur. Növbəti ilin büdcə layihəsində dövlət əsaslı vəsait qoyuluşu, investisiya xərcləri üçün 22 milyon manat məbləğində vəsait müəyyənləşdirilib. Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi, subsidiyaların ödənilməsi üçün 2024-cü il büdcə layihəsində 10 mil-





yon 300 min manat məbləğində vəsait nəzərdə tutulur.

Həsən İsmayılov növbəti büdcə ili ərzində maliyyə orqanları tərəfindən büdcənin qanunvericiliyə uyğun icrası istiqamətində bütün zəruri tədbirlərin həyata keçiriləcəyini, büdcə vəsaitlərinin qanunauyğun və səmərəli istifadəsinə dövlət nəzarətinin gücləndiriləcəyini qeyd edib.





İclasda İqtisadi siyasət komitəsinin sədri İsa İsayev 4 dekabr 2023-cü il tarixdə keçirilən "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsinin müzakirəsi ilə bağlı Ali Məclis komitələrinin birgə iclasında aparılan müzakirələrdən ətraflı danışıb.

Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin qəbulu prosesi əhəmiyyətli və yaddaqalan oldu. İlk dəfə olaraq muxtar respublika büdcəsinin layihəsi haqqında qanun dərc olundu ki, bu da maliyyə şəffaflığının və ictimai iştirakçılığın təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bundan başqa, Ali Məclisin komitələrinin birgə iclasında hökumət üzvləri ilə muxtar respublikanın 2024-cü il büdcəsinin ilkin müzakirəsi keçirildi, büdcənin məzmunu ilə bağlı dəyərli fikirlər irəli sürüldü ki, bu da çatışmazlıqların müəyyən edilməsi, ümumiyyətlə, müzakirə mədəniyyətinin təkmilləşdirilməsi baxımından faydalı oldu.

Büdcə layihəsini uğurlu hesab etdiyini deyən İsmayıl Qəribli bildirib ki, 2023-cü ilin büdcəsi ilə müqayisədə gəlirlərin 20 milyon 883 min manat artırılması, xərclərin 88 milyon 648 min manat azaldılması, habelə dotasiyanın 109 milyon 531 min manat məbləğində azaldılması nəzərdə tutulur. Dəmək olar ki, bütün bəndlər üzrə gəlirlərin mənbələrində artım müşahidə olunur. Ümid edirəm ki, müsbət dinamika növbəti illərdə də qorunub saxlanacaq.

Seçicilərinin qaldırdıqları bir sıra mühüm məsələləri diqqətə çatdıran komitə sədri vurğulayıb ki, son illər yağıntıların azalması aqrar rayon olan Şərurda əkinlərin suvarma suyu ilə təminatında ciddi problemlər yaradır. Keçirilən görüşlərdə haqlı olaraq sakinlər 2024-cü ildə bu problemlərin həlli üçün hansı tədbirlərin görüləcəyi ilə maraqlanırlar. Mən də Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən bu məsələ ilə bağlı hansı işlərin görüləcəyini və büdcədə meliorasiya tədbirləri üçün nəzərdə tutulmuş 31 milyon 874 min 156 manat vəsaitdən nə qədərinin yeni artezian quyularının qazılmasına və suvarma xətlərinin çəkilməsinə ayrılacağını öyrənmək istəyirəm.

Qeyd edilib ki, digər bir məsələ isə müvafiq yaşa çatmış uşaqların bağçalara qəbul edilə bilməməsidir. Hazırda, təxminən, 113 mindən çox sakinin yaşadığı Şərur rayonunda cəmi 1 uşaq bağçası fəaliyyət göstərir. Bu, bir tərəfdən işləyən valideynlərin uşaqlarının bağça ilə təmin edilməməsi, digər tərəfdən isə təhsil müəssisələrini "məktəbəqədər təhsil" ixtisası üzrə bitirmiş şəxslər üçün işsizlik problemi yaradır. Ona görə də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin rəhbərliyindən bu problemin həlli üçün hansı tədbirlərin görüləcəyi barədə məlumat almaq istəyirəm.

İsmayıl Qəribli deyib ki, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunun xərclər hissəsinin 7.3.4-cü maddəsində "Məhkəmə qərarlarının icrası üçün xərclər" göstərilsə də, "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsində belə müddəa nəzərdə tutulmayıb. Gələcəkdə məhkəmə qərarlarının icrası üçün xərclərin hansı mənbədən maliyyələşdiriləcəyi sual doğurur.

Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova büdcə layihəsində elm, kənd təsərrüfatı, meliorasiya sahələrində xərclərin azaldığını bildirib, səbəbi ilə bağlı hökumət nümayəndələrinə sual ünvanlayıb.

Humanitar siyasət komitəsinin sədri Elman Cəfərli vurğulayıb ki, bu gün muxtar respublikanın əsas maliyyə planı olan büdcənin geniş müzakirəsi Ali Məclisin Daxili Nizamnaməsinin 18 və 19-cu maddələrində nəzərdə tutulan qaydada keçirilir. Daxili Nizamnamənin 18.1-ci maddəsinə əsasən büdcə haqqında qanun layihəsini üç oxunuşda müzakirə etməliyik və bu gün ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin ilk oxunuşda müzakirəsi baş tutur. Büdcə haqqında qanun layihəsinin ilk dəfə mətbuatda dərc olunaraq, ictimai müzakirəyə çıxarılması mütərəqqi addım kimi xüsusi qeyd edilməlidir. Bundan başqa, uzun illər sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisində parlamentlər üçün xarakterik olan işgüzar müzakirə mühitinin yenidən canlandırılmasının nümunəsi kimi, bir neçə gün əvvəl, dekabrın 4-də Ali Məclisin İqtisadi siyasət komitəsinin iclasında Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin layihəsinin geniş müzakirəsinin keçirilməsi də büdcə tərtibi prosesinə mühüm töhfə olub.

Elman Cəfərli bildirib ki, "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanununun 7.1.5.-ci bəndində seçkilərin keçirilməsi ilə bağlı vəsait nəzərdə tutulsa da, Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsində seçkilərin keçirilməsi ilə bağlı xərclər əks olunmayıb. Əgər 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı qərar qəbul olunarsa, seçkilər üçün vəsait necə təmin olunacaq?

Diqqətə çatdırılıb ki, büdcə layihəsinin hazırlanmasında şəffaflıq, dürüstlük, hesabatlılıq əsas prinsip kimi götürülüb və bu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən muxtar respublikada həyata keçirilən islahatların ruhuna tamamilə uyğundur. Muxtar respublika parlamenti, eyni zamanda muxtar respublika hökuməti qarşıdakı illərdə "Naxçıvan Muxtar Respublikasının Ali kişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində üzərimizə düşən vəzifələrin

Ardı 3-cü səhifədə





layiqincə həyata keçirilməsində birgə fəaliyyət göstərəcək, həm Dövlət Proqramının icrası uğurla başa çatacaq, həm də muxtar respublika büdcəsinin xərclərinin ən azı əhəmiyyətli hissəsinin dotasiyasız formalaşdırılmasına nail olacağıq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, Ali Məclisin iki deputatı dünyasını dəyişdiyi üçün həmin deputat mandatları boşdur və qanunauyğun olaraq Ali Məclis tərəfindən istənilən zaman boş yerlərə seçkilər keçirilə bilər. Bu məsələ komitə iclasında müzakirə olunduqdan sonra Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasından həmin yerlərə seçkilərin keçirilməsi ilə bağlı müvafiq xərclərin smetasının müəyyənləşdirilməsi xahiş edilib və komissiya tərəfindən də müvafiq smeta təqdim olunub.

Anar İbrahimov bu məsələnin gələcək müzakirələrdə hökumət üzvləri tərəfindən nəzərə alınmasını diqqətə çatdırıb.







Sonra gündəlikdə duran birinci məsələ – “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (birinci oxunuş) ətrafında geniş müzakirələr aparılıb.

Deputat Vüsalə Əliyeva vurğulayıb ki, suveren, müstəqil ölkənin azad vətəndaşlarıyıq. Günü-gündən abadlaşan, müasirləşən, inkişaf edən bir ölkənin sakini olmaqdan qürur duyuruq. Bu gün Sədərək rayonunda bir çox idarə, müəssisə binaları yenidən qurulub və ya əsaslı təmir olunub. Sədərək kəndini Heydərabad qəsəbəsi, Qaraağac və Dəmirçi kəndləri ilə birləşdirən yollarda, eyni zamanda kəndin mərkəzi küçələrində işıqlandırma sistemi yoxdur.

Deputat Vüsalə Əliyeva büdcə müzakirəsində Sədərəyin mərkəzi küçələrinin işıqlandırılması üçün lazımi avadanlıqlarla təchiz olunmasına büdcədən vəsait ayrılmasını təklif edib.

Deputat Əmir Babayev büdcə layihəsində təhsilin inkişafı, gənclər siyasətinə ayrılan, eləcə də muxtar respublikanın ehtiyat fondunda nəzərdə tutulan vəsaitin az olmasının səbəbi ilə bağlı sual ünvanlayıb.

Əmir Babayev Alışar, Qorçulu, Muğanlı və Çomaxtur kəndlərində suvarma suyu ilə bağlı problemlərdən danışıb, həmin kəndlərdə daxili yolların yararsız olduğunu bildirib, bu istiqamətdə tədbirlərin görülməsini xahiş edib.

Deputat Ehtimad Məmmədov su təsərrüfatı üzrə xərclərin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi ilə əlaqədar bildirib ki, “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Qanununun xərclər hissəsinin 7.8.3-cü maddəsində su təsərrüfatı ilə bağlı vəsait nəzərdə tutulsa da, “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Qanun layihəsində belə bir maddə əks olunmayıb. Nəzərə alaq ki, muxtar respublikada Su Ehtiyatları Agentliyi yaransa, onun maliyyələşməsi üçün büdcədə əlavə vəsaitin olmaması suallar doğuracaqdır.

Deputat İsa Məmmədov “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Qanun layihəsinin 4-cü maddəsinin 4.10.5-ci yarımbəndində yanacaq və enerji kompleksi üçün 10 milyon manat xərc istiqamətinin planlaşdırıldığını deyib. Bildirilib ki, əlavə olaraq 10 milyon manat vəsaitin subsidiya kimi verilməsi dotasiyanın şişirdilməsinə səbəb olur. İsa Məmmədov 2024-cü il büdcə layihəsi üzrə bölmənin 6-cı köməkçi bölməsi üzrə muxtar respublikaya yanacağın daşıyıcılar tərəfindən daşınması üçün çəkilən əlavə xərclərin Naxçıvan Muxtar Respublikası büdcəsindən deyil, müvafiq şirkətlər tərəfindən qarşılanmasının məqsədəuyğun olduğunu deyib.

Deputat Fərəc Fərəcov qeyd edib ki, büdcə layihəsindən bir daha aydın olur ki, əsas məqsəd muxtar respublikanın iqtisadi qüdrətini daha da artırmaq, digər bütün sahələrin yüksəlişini təmin etmək və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına dəstək göstərməkdir. Fərəc Fərəcov Culfa rayon Dizə və Gülüstan kəndlərinin ərazilərində olan kəhrizlərin yenidən bərpa olunması, Yaycı kəndində daxili yolların əsaslı təmir olunması, eləcə də uşaq bağçasının tikilməsi ilə bağlı sakinlərin istəyini diqqətə çatdırıb. Deputat baramaçılıq və ipəkçilik sahələrinin bərpası məsələlərinə də toxunub və bunlar üçün qəbul olunacaq büdcədə vəsait nəzərdə tutulmasının vacibliyini bildirib.





Deputat Nüsrət Həsənov büdcə layihəsində səhiyyə sahəsinə ayrılan vəsaitin əvvəlki illərlə müqayisədə azaldıldığını bildirib. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 29.5-ci bəndinə əsasən Naxçıvan Muxtar Respublikası büdcəsinin icrasına nəzarəti Azərbaycan Respublikasının Hesablama Palatası və Ali Məclisin həyata keçirdiyini bildirən deputat Nüsrət Həsənov qeyd edib ki, buna baxmayaraq, Ali Məclis Aparatında büdcəyə nəzarət qurumu yoxdur. Nüsrət Həsənov nazirlik, idarə, müəssisə, dövlət və hökumət orqanlarında büdcə vəsaitinin xərclənməsində şəffaflığın təmin edilməsi, səmərəliliyin və hesabatlılığın artırılması məqsədilə Ali Məclis Aparatında büdcəyə nəzarət qurumunun yaradılmasını təklif edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov Ali Məclis Aparatında büdcəyə nəzarət qurumunun yaradılması üçün məsləhətləşmələr aparıldığını və Ali Məclisin yaz sessiyasında nəzərə alınacağını diqqətə çatdırıb.





Deputat Hacıfəxrəddin Səfərli xarici ölkə arxivlərində Naxçıvanla bağlı məlumatların və tarixi sənədlərin araşdırılması üçün büdcə layihəsində tələbata uyğun ezamiyyə xərclərinin nəzərdə tutulmasının vacibliyini bildirib. Həmçinin o, gənc ailələrin məişət şəraitinin, Cəhri qəsəbəsində içməli və suvarma su təminatının yaxşılaşdırılması, eyni zamanda kanalizasiya sistemlərinin çəkilməsi, eləcə də Cəhri və Nehrəm qəsəbələrində çoxmərtəbəli yaşayış binalarının tikilməsi istiqamətində tədbirlər görülməsini xahiş edib, büdcədə bu məsələlərlə bağlı xərclərin artırılmasını təklif edib.

Deputat İsa İsayev dövlət büdcəsindən fərqli olaraq “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Qanun layihəsində dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların və səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividentlərin göstərilməməsinin səbəbi ilə bağlı sual ünvanlayıb.

Deputat Vüqar Abbasov Naxçıvanda istehsal olunan məhsulların muxtar respublika ərazisində istehlak olunan hissəsinin hər növ rüsumlardan azad edilməsi, məhsulların daşınma xərclərinin subsidiyalaşdırılması, muxtar respublikada fəaliyyət göstərən müəssisələrin iqlim şəraiti nəzərə alınaraq enerji daşıyıcılarına müəyyən güzəştlərin edilməsi, investisiyaların qiymətləndirilməsinin nəzərə alınaraq dövlət tərəfindən sahibkarlara dəstək göstərilməsi, həmçinin Naxçıvanda fəaliyyət göstərən müəssisələrin gələcəkdə xüsusi iqtisadi rejimdə tətbiq olunacaq xüsusi güzəştlərdən yararlanması, dövlət və özəl sektorun qarşılıqlı fəaliyyət göstərməsinin əhəmiyyətindən danışıb.

Ali Məclis sədrinin müavini Anar İbrahimov bildirib ki, bütövlükdə Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi əvvəlki illərlə müqayisədə keyfiyyətli hazırlansa da, etiraf etməliyik ki, sənəddə, onun məzmununda büdcə zərfinə daxil olan digər qüsurlar var. Bu qüsurlar aradan qaldırıla bilər və buna görə də hökumətlə birgə çalışmalıyıq. Əgər qüsurları qruplaşdırsaq, onları 3 yerə bölmək olar. Birincisi, institusional boşluqlardan doğan məsələlərdir. Burada qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası büdcəsi və ona bağlı sənədlər “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Həmin qanunda muxtar respublika büdcəsi, onun tərtibi, hazırlanması sırf analogiya üzrə aparılır. Bu boşluğu, təbii ki, Ali Məclis və muxtar respublikanın hökuməti həmin qanuna dəyişikliklər təklif etməklə doldura bilər. İkincisi, müzakirə mədəniyyətinin zəifliyidir. Bir yerdə çalışaraq bu mədəniyyəti formalaşdırmalıyıq. Büdcənin tərtibi zamanı, təəssüf ki, büdcə Azərbaycan Respublikasında müvafiq orqanlara göndərilməmişdən öncə Ali Məclisə təqdim olunmayıb ki, təkliflər olunsun. Bu həm də qanuni prosesdir. Çünki “Normativ-hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu tələb edir ki, qanun layihəsi hazırlanarkən onun maraqlı tərəflərlə müzakirəsi təşkil olunsun. Gələcəkdə bu problem də birlikdə çalışmaqla aradan qaldırılacaq. Əsas məsələ büdcə proqnozlarında olan boşluqlardır. Bir çox hallarda proqnozlaşdırma elmi və metodoloji, qanunvericilik tərəfdən yox, səthi aparılıb. Məlum olub ki, icra orqanlarının bir çoxunun rəyi ya nəzərə alınmayıb, ya da qismən nəzərə alınıb. “Büdcə sistemi haqqında” Qanunun 26-cı maddəsinə əsasən Naxçıvan Muxtar Respublikasının büdcəsi ilə dövlət büdcəsinin qarşılıqlı əlaqəsi gəlir mənbələrinin, gəlirlərin dotasiya, subvensiya və büdcə ssudaları şəklində bölüşdürülməsi vasitəsilə həyata keçirilir. Yəni Naxçıvan Muxtar Respublikasının Ali Məclisi büdcədə artıq nəzərdə tutulan məqamları dotasiyaya toxunmamaqla, digər sahədə Ali Məclisdə düzəlişlər edə, təklifləri həyata keçirə bilər.

İclasda bildirilib ki, “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6-cı maddəsinə əsasən Ali Məclisin Komitəsi komitəyə təqdim olunmuş qanun layihələrinə dair rəylər qəbul edir. Buna müvafiq olaraq İqtisadi siyasət komitəsinin sədri İsa İsayev bu qanun layihəsi barədə təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb.

Anar İbrahimov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir, söylənilmiş təklif və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilir.

“Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Qanun layihəsi səsə qoyularaq söylənilmiş təklif və iradlar nəzərə alınmaqla birinci oxunuşda protokol qaydasında qəbul edilib.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov büdcə layihəsinin müzakirəsi zamanı deputatlar tərəfindən qaldırılan məsələlərə aydınlıq gətirib. Baş nazir bu ildən etibarən təhsil xərclərinin bir hissəsinin mərkəzləşdirilmiş qaydada ödənildiyini və ona görə də azalma olduğunu bildirib, səhiyyə xərclərinin tələbata uyğun hesablandığını əsaslandırıb, kənd təsərrüfatı xərclərinin isə institusional islahatlara uyğun azaldığını diqqətə çatdırıb, digər məsələlərin isə Nazirlər Kabineti tərəfindən ikinci oxunuşda daha ətraflı cavablandırılacağını qeyd edib.

Gündəlikdə duran ikinci məsələnin müzakirəsi zamanı bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 41.2-ci maddəsinə görə Ali Məclisin rəhbərliyi Ali Məclisin komitəsində təmsil olunmur və Ali Məclisin digər hər bir deputatı komitələrdən birinin üzvü olmalıdır. Ali Məclisin deputatı Azər Zeynalov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 5 oktyabr 2023-cü il tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini vəzifəsindən azad edildiyindən və Ali Məclisin heç bir komitəsində üzv olmadığından onun İqtisadi siyasət komitəsinə üzv seçilməsi təklif edilir. Eyni zamanda Daxili Nizamnamədə bir deputatın ən çox iki komitənin üzvü olma imkanı nəzərdə tutulduğundan Hüquq siyasəti komitəsinin üzvü Hüseyn Bağırsoylunun müraciəti əsasında onun İqtisadi siyasət komitəsinə üzv seçilməsi təklif olunur.

Bağırsoylu Hüseyn Qədirulla oğlu və Zeynalov Azər Yadulla oğlunun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin üzvləri seçilməsi ilə əlaqədar hazırlanmış qərar layihəsi oxunduqdan sonra səsə qoyularaq qəbul edilib.

Ardı 4-cü səhifədə

Gündəlikdə duran üçüncü məsələ – Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin vəzifəsindən azad olunması ilə bağlı bildirilib ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 36-cı maddəsinin II hissəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Ali Məclis təsdiq edir. Eyni zamanda Ali Məclisin Daxili Nizamnaməsinin 54-cü maddəsində Nazirlər Kabinetinin tərkibinin təsdiqi proseduru müəyyən edilib. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinin təsdiqi proseduru həm vəzifəyə təyin etməni, həm də vəzifədən azad etməni nəzərdə tutur. Naxçıvan Muxtar Respublikasının Baş naziri 2023-cü il 8 dekabr tarixdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Əliyev Tapdıq Vaqif oğlunun tutduğu vəzifədən azad olunması ilə bağlı təqdimat verib.

Təqdimat oxunduqdan sonra gündəlikdə duran məsələ ilə əlaqədar qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Cari məsələlərin müzakirəsi zamanı deputatlardan İsmayıl Qəribli, Yeganə Məmmədova, Əmir Babayev, Nüsrət Həsənov, Vüsalə Əliyeva seçicilərinin suallarını diqqətə çatdırıblar.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov cari məsələlərin müzakirəsi zamanı deputatlar tərəfindən ünvanlanan suallara aydınlıq gətirib, Nazirlər Kabinetinin səlahiyyətlərinə daxil olan məsələlərə baxılması üçün müvafiq qeydlər aparılıb.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 8 dekabr 2023-cü il tarixli növbəti iclası öz işini başa çatdırdı.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

2023-cü il “Heydər Əliyev İli”dir

# Gələcək nəsillərə örnək ideyalar



Bu il böyük bir şəxsiyyətin, azərbaycanlıların Ümummilli Liderinə çevrilmiş dahi insanın – Heydər Əliyevin anadan olmasının 100 illik yubileyini qeyd edirik. 2023-cü il bütövlükdə Ulu Öndərin adı ilə bağlıdır. Prezident cənab İlham Əliyevin imzaladığı Sərəncamla “Azərbaycan Respublikasında 2023-cü il “Heydər Əliyev İli” elan edilib. Görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövrü Sərəncamda çox yığcam, amma dolğun ifadə edilib: *“Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir”.*

Sərəncamda qeyd edilənlər Onun ölkəmizə bəxş etdiklərinin cüzi hissəsidir. Bu da o deməkdir ki, xalqın bütöv bir ili öz liderinin adı ilə bağlayıb, ona həsr etməyi səbəbsiz deyil. Bir də Onun xalqına həsr etdiyi ömrün yanında bu bir il nədir ki...

Ulu Öndər Heydər Əliyevin həyatı, bütün fəaliyyəti bir hədəfə yönəlib – millətinin adını, nüfuzunu yüksəltməyə, dövlətin qüdrətini artırmağa. Ona görə də Ümummilli Liderimizin ölkəmizə rəhbərlik etdiyi illərdə hər sahədə artan rəqəmlər, davam edən inkişaf müşahidə olunub. Görkəmli dövlət xadimi yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bütün sahələrə, o cümlədən elm və təhsilə diqqət və qayğı daha da artırıldı. Bu da təsadüfi deyildi. Çünki dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir. Məhz buna görə də Ümummilli Liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi potensialının gücləndirilməsi elm və təhsilin inkişafı ilə paralel aparılırdı. Ulu Öndər rəhbərliyi Azərbaycanın tarixinə elmin və təhsilin tərəqqi dövrü kimi daxil oldu. Təkcə paytaxtımızda deyil, respublikamızın ucqarlarında da yüzlərlə məktəb, mədəniyyət evi, kitabxana, uşaq bağçası tikildi. Bütün sahələrdə görünməmiş uğurlar qazanıldı.

Bu gün Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatının elə bir sahəsi yoxdur ki, o sahənin inkişafı Ulu Öndərin adı ilə bağlı olmasın. Azərbaycanın gələcək müstəqilliyi üçün zəmin hazırlayan dövlət xadimi 1969-1982-ci illərdə milli ruhun və Azərbaycançılığın sovet ideologiyası çərçivəsində sıxışdırılmasının qarşısını almaqla onun dirçəldilməsi istiqamətində böyük işlər görüb. Görkəmli dövlət xadimi mövcud imkanlardan bacarıqla istifadə edərək deyirdi ki, həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir təhsilə uyğun təhsilə malik olmalıdır. ***“Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir”***, – deyən təhsilin cəmiyyətin inkişafında və şəxsiyyətin formalaşmasındakı əhəmiyyətini daim yüksək qiymətləndirən Ulu Öndərin qəbul etdiyi qərarlar, uzaqgörənliklə irəli sürdüyü konseptual fikirlər və ideyalar, tarixi tövsiyələr bu gün də ölkəmizdə təhsil islahatlarının əsas istiqamətlərinin müəyyənləşdirilməsinə öz töhfəsini verməkdədir. Ümummilli Lider öz çıxışlarında dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq deyirdi: ***“Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır”.***

Azərbaycan müstəqillik qazandıqdan sonra təhsilimizin milli əsaslar üzərində yenidən qurulması, əsl inkişafa qovuşması da məhz Heydər Əliyev dühası sayəsində gerçəkləşdi. Bütün varlığı ilə Vətəninə bağlı olan ən böyük azərbaycanlı Heydər Əliyevin rəhbərliyi ilə elm və təhsil sahəsində köklü dəyişikliklər, qəbul olunmuş qərar, fərman və sərəncamlar, onların həyata keçirilməsi müstəqil Azərbaycanda təhsil sektorunun hərtərəfli yüksəlişini, tərəqqisini, məzmunca yeniləşməsini, maddi-texniki cəhətdən möhkəmlənməsini, dünya standartlarına yaxınlaşmasını şərtləndirdi.

Ümummilli Liderimizin təməlini qoyduğu, möhkəmləndirdiyi təhsil siyasəti bu gün etibarlı zəmin üzərində inkişaf etdirilir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin böyük səyləri sayəsində elm və təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının mühüm istiqamətlərindən birinə çevrilib. Aparılan islahatlar, təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn tədbirlər Azərbaycan təhsilinin dünyaya inteqrasiyasına, milli və dünyəvi dəyərlər zəminində yüksəlişinə layiqincə xidmət etməkdədir. Bu da ***“Təhsil millətin gələcəyidir”***, – deyən Ulu Öndər Heydər Əliyevin siyasi kursunun möhtəşəm uğurudur.

Ulu Öndər ***“Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”*** söyləyərkən, ilk növbədə, xalqın, ölkənin gələcək taleyini, ölməz ideyalarının, məqsəd və arzularının həyata keçirilməsinin vacibliyini nəzərdə tutur və bu yolda İlham Əliyev şəxsiyyətinə inamını ifadə edirdi. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın regionun lider dövlətinə çevrilməsi, beynəlxalq birlikdəki yerini möhkəmləndirməsi, söz sahibinə çevrilməsi dünya miqyasında qəbuledilən reallıqdır.

İndi Azərbaycanda elə təhsil ocaqları var ki, dünyanın ən inkişaf etmiş ölkələrindəki məktəblərdən nəinki fərqlənmir, hətta onları üstələyir. Sevindirici hal odur ki, bu proses paytaxtla yanaşı, bütün bölgələri əhatə edir. Naxçıvanda da dövlət başçısının qayğısı ilə inşa edilən yeni, müasir məktəblər, təhsil kompleksləri, ali təhsil ocaqları tələbə və şagird kontingentinin təhsil şəraitini tamamilə dəyişir, tədrisin səviyyəsini yüksəldir. Elmi-tarixi inkişafın bütün mərhələlərində olduğu kimi, muxtar respublikamızın müasir dövrdə də öz uğurları ilə seçilən təhsil şəraiti dinamik inkişaf yolundadır.

Ümummilli Lider qazandığı hər bir uğuru şərtləndirən faktor kimi yeganə dayaq nöqtəsi olaraq doğma xalqını görürdü. Buna görədir ki, dünyanın ən nüfuzlu siyasət adamları cərgəsinə qatılan, xalqının böyük sevgi ilə Ümummilli Lider adlandırdığı böyük şəxsiyyət qürurla deyirdi: ***“Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam”.*** Siyasi mübarizədə müdriklik və qətiyyət, həyatda praqmatizm, dövlət idarəçiliyində ustalıq – Heydər Əliyev siyasi məktəbinin əsasını təşkil edən bu amillər Vətənə və xalqa xidmət naminə real siyasətlə məşğul olan hər bir kəs üçün tarixi örnəkdir. Çünki Heydər Əliyev şəxsiyyəti özlüyündə bir tarixi hadisə idi. Bu böyük insanın ideyaları bundan sonra da daim yaşayacaq, gələcək nəsillərə örnək olaraq qalacaqdır.

**Turan MƏMMƏDLİ**
*Naxçıvan Dövlət Universitetinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

## Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin XII regional konfransı Naxçıvanda keçirilib





Dekabrın 8-də Naxçıvan Muxtar Respublika Xəstəxanasında Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi ilə Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşkilatçılığı ilə akademik Zərifə xanım Əliyevanın 100 illiyinə həsr olunmuş Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin XII regional konfransı keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Naxçıvan şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edən Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

“Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsin Müşahidə Şurasının sədri Ləman İbrahimova qeyd edib ki, ölkəmizdə digər sahələr kimi, səhiyyənin inkişafı da məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ötən dövr ərzində bu sahədə mütərəqqi islahatlar həyata keçirilib, qanunvericilik bazası təkmilləşdirilib, müasir səhiyyə infrastrukturu yaradılıb. Ulu Öndərin sosial siyasət kursunu bu gün layiqincə davam etdirən Prezident cənab İlham Əliyev səhiyyənin inkişafına xüsusi diqqət yetirir. Müasir səhiyyə sisteminin qurulması, bu sahədə kadr hazırlığı, əhalinin sağlamlığının qorunması üçün genişmiqyaslı tədbirlər həyata keçirilir.



Vurğulanıb ki, “Heydər Əliyev İli” çərçivəsində muxtar respublikanın səhiyyə sistemində də müxtəlif tədbirlər, konfranslar keçirilir. Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin XII regional konfransı oftalmologiya sahəsində yenilikləri, nailiyyətləri araşdırmaq, eyni zamanda bu sahədə təcrübələri bölüşmək baxımından əhəmiyyətlidir.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Elmar Qasımov bildirib ki, mütəmadi olaraq Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkim heyəti muxtar respublikada seminar və konfranslar təşkil edir, müayinə və əməliyyatların aparılmasında yaxından iştirak edir.

Elmar Qasımov Azərbaycan oftalmologiyasının inkişafında akademik Zərifə xanım Əliyevanın böyük rolundan bəhs edib, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi haqqında ətraflı məlumat verib. Bildirilib ki, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi beynəlxalq standartlara cavab verən müasir diaqnostik avadanlıqlarla təchiz olunub, mərkəzdə oftalmologiyanın bütün sahələrini əhatə edən şöbələr və yüksəkixtisaslı mütəxəssislər fəaliyyət göstərir. Ölkəmizdə yüksəkixtisaslı gənc oftalmoloqlar hazırlanır və oftalmologiya elmi sürətlə inkişaf edir.

Tibb üzrə elmlər doktoru Hicran Namazova çıxışında bu ilin Ümummilli Lider Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın 100 illiyi ilə əlamətdar olduğunu deyib, Milli Oftalmologiya Mərkəzində Zərifə Əliyevanın müəyyənləşdirdiyi ənənənin davam və inkişaf etdirildiyini qeyd edib.

Çıxış edənlər konfransın işinə uğurlar arzulayıb.

Sonra Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi haqqında videoçarx nümayiş etdirilib. Mövzu ilə bağlı oftalmoloq-həkimlərin çıxışları dinlənilib, müzakirələr aparılıb.

Qeyd edək ki, həmin gün Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin növbəti tibbi aksiyası Naxçıvan Muxtar Respublika Xəstəxanasında həyata keçirilib.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Mədəniyyət naziri Naxçıvanda vətəndaşları qəbul edib



Prezident cənab İlham Əliyevin tapşırığına əsasən hər ay mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşlarla görüşləri keçirilir, sakinlərin problem və təklifləri dinlənilir.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli dekabrın 8-də Naxçıvan şəhərində vətəndaşlarla görüşüb.

Vətəndaşların qəbulundan öncə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərində ucaldılmış abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyularaq Ulu Öndərin əziz xatirəsi ehtiramla yad edilib.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində keçirilən qəbulda Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşlar iştirak ediblər.

Mədəniyyət naziri vətəndaşların müraciətlərini, ayrı-ayrı məsələlərə dair xahiş və təkliflərini dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı qəbulda iştirak edən nazirliyin məsul nümayəndələrinə tapşırıqlar verib.

Görüşdə şəhid ailələri və qazilərin qaldırdıqları məsələlərə xüsusi diqqətlə yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə hər bir müraciət qeydiyyata alınaraq nəzarətə götürülüb.

***Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Dövlətimiz beynəlxalq hüququn prinsip və normalarına sadiqdir

**Ulu Öndər Heydər ƏLİYEV:** *Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.*

*Bu il Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 ili tamam olur. Hər il dekabrın 10-u bütün dünyada "İnsan Hüquqları Günü" kimi qeyd olunur.*

Demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərimiz tərəfindən həyata keçirilmiş hüquq islahatları Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır.

1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu, ümumxalq səsverməsi-referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının ilk Milli Konstitusiyasında Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin müddəaları əks etdirilmiş və dövlətimizin ali məqsədlərindən biri kimi məhz insan hüquqlarının qorunması təsbit edilmişdir. Üçdəbir hissəsi insan hüquq və azadlıqlarına həsr edilmiş bu Konstitusiya ölkəmizdə insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoymuşdur.

Konstitusiyanın qəbulundan sonra cəmiyyətin bütün sahələrini əhatə edən köklü dəyişikliklər prosesi çərçivəsində Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş çox mühüm qanunlar və normativ-hüquqi aktlar qəbul edilmişdir.

Şərqdə ilk dəfə olaraq ölüm cəzasının Azərbaycanda ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini, demokratik prinsiplərin inkişafına xüsusi önəm verildiyini təsdiqləyərək Ulu Öndərimizin bəşəri humanizmə və beynəlxalq hüquq normalarına sadiqliyini bir daha nümayiş etdirmişdir.

Ümummilli Liderin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərmanı və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 18 iyun tarixli Sərəncamı ölkəmizdə qanunvericilik və institusional islahatlara təkan vermiş, insan hüquqlarının müdafiəsi sahəsində hüquqi mexanizmlər təkmilləşdirilmişdir.

1996-2000-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulan Azərbaycan Respublikası 2001-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etmişdir. Avropa Şurasının bu mühüm sənədinə münasibət bildirməklə Azərbaycan beynəlxalq təşkilatla sıx əməkdaşlığa hazır olduğunu və demokratik ənənələrə, ədalətə, insan hüquqlarının qorunması sahəsində öz üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha bəyan etmişdir.

Ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə qanunun aliliyinin təmin olunmasını, insan hüquqları və azadlıqlarının müdafiəsini strateji prioritet kimi müəyyənləşdirən Ulu Öndər demişdir: ***"İnsan hüquq və azadlıqlarının müdafiəsi dövlətin ali məqsədidir. Azərbaycanda insan hüquqlarının qorunması, insan azadlıqlarının təmin edilməsi həmişə diqqət mərkəzində olmuşdur".***

Ulu Öndərin əsasını qoyduğu müasir insan hüquqları siyasətini yeni mərhələdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən müasir dövlətçilik siyasəti nəticəsində Azərbaycanda dünyəvi, hüquqi və demokratik dövlət qurulmuş, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi üçün hərtərəfli təminatlar yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 28 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" insan hüquqlarının təmin edilməsi prosesini keyfiyyətcə yeni müstəviyə keçirmişdir.

Ölkə başçısının 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan hüquqlarının və azadlıqların müdafiəsinin səmərəliliyinin artırılması sahəsində Milli Fəaliyyət Proqramı"nın icrası çərçivəsində Azərbaycan Respublikasının insan hüquqları sahəsində beynəlxalq müqavilələrə qoşulmasının prosesinin davam etdirilməsi, qanunvericilik aktları qəbul olunarkən insan hüquqları meyarının rəhbər tutulması, əhalinin müxtəlif qruplarının hüquqlarının daha səmərəli təmin edilməsi istiqamətində tədbirlərin davamlılığı təmin edilmişdir.

Ölkə başçısının uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan bu gün öz iqtisadi qüdrətini daim artıran, eyni zamanda mütərəqqi beynəlxalq normalara uyğun insan hüquq və azadlıqları sistemini formalaşdıran dövlətə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və 24 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycanın bütün ərazilərində suverenliyimiz bərpa edilmiş, bununla da Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasına nail olunmuşdur. Azərbaycan ərazi bütövlüyü bərpa edilməklə həm də öz doğma yurd-yuvalarından didərgin düşmüş vətəndaşlarının hüquq və azadlıqlarının kütləvi surətdə pozulmasının qarşısını alaraq onların konstitusion hüquqlarının və azadlıqlarının həyata keçirilməsi təmin edilmişdir.

Qeyd etmək lazımdır ki, sülhün keşiyində duran, hər zaman qədim dövlətçilik ənənələrinə sadiq olan Azərbaycan beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsiplərinə uyğun olaraq hər hansı ayrı-seçkiliyə yol verməden Qarabağ bölgəsində yaşayan etnik ermeni sakinlərinin də bərabər hüquqlarını multikultural dövlət siyasətinə uyğun olaraq qoruyur.

Bütün bunlara baxmayaraq, Ermənistan hələ də Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin bərpa olunmasına, nəticə etibarilə, Naxçıvan sakinlərinin öz ölkəsi daxilində sərbəst hərəkət etmək azadlığının təmin olunmasına imkan vermir. Eyni zamanda indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə qayıda bilməməsi çoxsaylı fundamental insan hüquqları prinsiplərinin, beynəlxalq hüququn jus cogens normalarının, beynəlxalq konvensiyaların ciddi və sistematik pozulmasıdır və bu, davamlı sülhün bərqərar olunmasına ciddi təhdid törədir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında insan hüquq və azadlıqları ilə bağlı həyata keçirilən mühüm islahatlar ardıcıl şəkildə davam etdirilir. Ölkə başçısının "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada bu istiqamətdə inkişafı təmin etmiş, insan hüquqlarının müdafiəsi ilə bağlı hüquq institutlarının inkişafı tarixində ən mühüm tədbirlərdən biri olan Müvəkkil təsisatı yaradılmışdır. Həyata keçirilən bu tədbirlər muxtar respublikada insan hüquqlarının müdafiəsi istiqamətində mövcud qanunvericiliyin daha da təkmilləşdirilməsini, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsini təmin edir.

Təhlükəsizliyin carçısı rolunda çıxış edən, sülh və əmin-amanlıq şəraitində daxili imkanlardan və ehtiyat mənbələrindən səmərəli istifadə edərək Azərbaycanın sürətlə tərəqqi edən diyarına çevrilmiş Naxçıvan Muxtar Respublikasında hüquq sisteminin müasirləşdirilməsi prosesinə uyğun olaraq insan hüquqlarının daha etibarlı müdafiəsinin təmin edilməsi ilə bağlı həyata keçirilən mühüm islahatlar ardıcıl şəkildə davam etdirilir.

*Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının qətiyyət və uğurla reallaşdırıldığı muxtar respublikamızın yüksələn iqtisadi inkişafı, hər bir sosial qrupa ünvanlanmış sosial-iqtisadi layihələrin ardıcıl həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yaxşılaşmasına, nəticə etibarilə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə, etibarlı müdafiəsinə və davamlı inkişafına öz töhfəsini verməkdədir.*

**Günay RZAYEVA**
***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)***

***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları "Şərq qapısı" qəzetində görəcəksiniz.***

## Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq

### Dünyanın o başından – Avstraliyadan Vətənə sevgiylə





**Fikrət ƏLİYEV**
***İT üzrə mütəxəssis, qrafik dizayner Avstraliya, Melburn***

Əziz həmvətənlərim, mən Hind okeanının sahillərindən, Avstraliyanın Melburn şəhərindən sizləri salamlayıram. Naxçıvan şəhərindən anadan olmuşam. Təhsilimi və hərbi xidmətimi tamamladıqdan sonra "Kanal 35" televiziyasında qrafik dizayner olaraq işləmişəm. Ailə qurduqdan sonra həyat yoldaşımla birgə dünyanın ən gözəl şəhərlərindən birində ali təhsil almağa qərar verdik. İnternetdə axtarış edərkən öyrəndik ki, Avstraliyanın Melburn şəhəri hava şəraitinə, tibbi xidmətlərə, təhsil sistemlərinə, maddi rifah səviyyəsinə, mədəni çeşidliliyə və digər bir çox faktora görə dünyanın ən gözəl şəhərlərindən biri kimi seçilib. Bu məlumat bizim üçün çox cəlbedici idi və bu şansı qaçırmamağa qərar verdik. Buna görə də Melburna gedib təhsil almağı özümüzə hədəf olaraq seçdik. Əlbəttə, bu proses asan olmadı, amma çox çalışaraq hədəfimizə çatdıq.

Bizim, əgər belə demək mümkündürsə, Avstraliya macəramız 8 il əvvəl bu şəkildə başladı. Əlbəttə ki, Vətəndən uzaqda, tanımadığımız insanlar və bələd olmadığımız mühitdə yaşamaq və bura adaptasiya olmaq o qədər də tez və asan başa gəlmədi. Xüsusilə də avstraliyalıların özünəxas bir ingilis dilindən istifadə etdiklərini gördük. Onlar sözləri qısaldır, tez və bəzən anlaşılmaz danışırlar. Əlbəttə, zamanla biz də bunlara alışdıq. Hər macəranın öz çətinlikləri var, demək olar. Amma qarşımıza qoyduğumuz məqsədə çatmaq üçün hər ikimiz öz üzərimizdə çalışdıq və istəklərimizi reallaşdıra bildik. Hazırda isə Melburn şəhərində yaşayırıq və iki övladımız var. Burada informasiya və kommunikasiya texnologiyaları sahəsində mütəxəssis kimi fəaliyyət göstərirəm.

Başqa bir ölkədə yaşamağın əsas məsələlərindən biri də öz ölkəni təmsil etməyi bacarmaqdan ibarətdir. Eyni zamanda Vətənini təbliğ etməyi bacarmaq da bura daxildir. Burada yaşayan həmvətənlərimizin fəaliyyət göstərdiyi Azərbaycan diasporu ilə birgə ölkəmizin zəngin tarixi, ənənələri və mövcud mədəniyyətini Avstraliyadakı dostlarımız və tanışlarımıza tanıtmaq imkanına nail oluruq. Bu, Azərbaycanın mədəni mirasının dünyada daha da yayılmasına və tanınmasına kömək edir.



Bizim ölkəmiz müstəqil və inkişaf etmiş bir dövlətdir. Bizim ölkəmizin həmrəylik günü bizim üçün çox mühüm bir gündür. Bu gün bizim ölkəmizin tarixində böyük bir dönüş nöqtəsidir. Biz bu günü sevinc və qürurla qeyd edirik. Avstraliyada yaşayan azərbaycanlılar olaraq ölkəmizin mədəni mirasını bura gətirib buradakı insanlara tanıtmağa çalışırıq. Ölkəmizin dostluq və sülhsevərliyini, tolerant və çoxkonfessiyalı dövlət olmasını bütün dünyaya göstərmək istəyirik.

Xüsusilə Vətən müharibəsi və ondan sonrakı müddətdə igidliklə, qəhrəmanlıqla döyüşüb torpaqlarımızı qorumuş və azad etmiş şanlı şəhidlərimizin ruhuna ehtiramımızı bildiririk. Onların igidliyi sayəsində biz bu gün müstəqil və azad yaşayırıq, bu gün bizim Vətənimiz bütöv və azaddır. Vətənin azadlığı uğrunda canından keçmiş şəhidlərimizə Allahdan rəhmət, onların ailələrinə isə səbir diləyirik.

Hamınız bilirsiniz ki, Avstraliya Azərbaycan üçün çox uzaq bir ölkədir. Mədəniyyəti də kifayət qədər fərqlidir. Bütün bunlara baxmayaraq, biz öz dilimizi, mədəniyyətimizi və ənənələrimizi unutmamağa çalışırıq. Eləcə də övladlarımıza da bunları öyrədirik. Çünki gələcəkdə onlar ölkəmizin burada təmsilçiləri olacaqlar. Mənsub olduqları xalqın dilini, mədəniyyətini, tarixini yaxşı bilməlidirlər ki, onu lazımi səviyyədə təmsil etməyi və qorumağı da öyrənsinlər. Hər nə qədər doğulduğumuz torpaqdan, qohumlarımızdan uzaqda yaşasaq da, biz bunu ən ümdə vəzifələrimizdən birinə çevirmişik.

Azərbaycan Respublikasının Həmrəylik Günü münasibətilə biz də dünyada yaşayan digər həmvətənlərimiz kimi mənsub olduğum xalqımızla həmrəyliyimizi bildirməkdən qürur duyuruq. Boya-başa çatdığım gözəl Naxçıvanımızın sakinlərinə, bütün Azərbaycan xalqına və bizim kimi dünyanın müxtəlif bölgələrində yaşayan bütün həmvətənlərimizə sevinc, səadət və uğurlar diləyirəm. Bu əlamətdar gün, Azərbaycan xalqının müstəqil dövlət kimi yaşadığı, nailiyyətlərə sürətlə nail olduğu bir qələbə günüdür. Varlığımızın, birliyimizin, eyni məqsəd, eyni amal uğrunda çalışmağımızın, bütöv və güclü Azərbaycan üçün hər şeyə hazır olduğumuzun, həmrəy olduğumuzun bütün dünyaya bəyan edildiyi gündür bu gün. Biz birlikdə daha da güclü olacağıq. Azad, müstəqil və daim inkişaf edən Azərbaycan uğrunda çalışaq!

*Bu məqsədlər uğrunda birlikdə daha da böyük uğurlara çatmağı, Azərbaycanın adını daha da yüksəltməyə nail olmağı, Azərbaycanımızın daha da inkişaf etməsini və xalqımızın həmişə rifah içində yaşamasını arzulayıram.*

# İki var otuz ikidən daha çox...

*Dünya ölkələri hər ötən gün Vətənimiz Azərbaycanın qüdrətinin, siyasi arenada əldə etdiyi müvəffəqiyyətin şahidi olur. Qədim torpağımız Qarabağın işğaldan azad edilməsindən sonra dövlət başçımızın bu və ya digər sahələrdə apardığı danışıqlar, icra edilən proqramlar dövlətimizi, sözün əsl mənasında, dünya miqyasında güclü söz sahibi edib. Bir zamanlar Xocalı soyqırımı kimi cinayəti tanımayan, tanımaqdan boyun qaçıran dövlətlər, daha dəqiq ifadə etsək, dünyanın idarəedici güc sahibləri artıq Azərbaycan xalqının, ordusunun gücü qarşısında sülh və tərəfdaşlığın düşmən ölkə ilə olan münasibətlərdə daha yaxşı nəticələr doğuracağını gündəmə gətirirlər.*



Ötən gün axşam saatlarında ölkə mediasında yayılan operativ xəbər isə başda Azərbaycan xalqı olmaqla bütün soydaşlarımızı sevindirdi. Bir neçə gün bundan öncə Ermənistan mediasında ömürlük həbs cəzasına məhkum edilməsi xəbəri yayılan Hüseyn və onunla birgə həbs olunan Aqşinin azad edilməsi dövlətimizin siyasi müstəvidə əldə etdiyi parlaq qələbənin təntənəsi idi. Qeyd edək ki, Azərbaycan Ordusunun əsgərləri – 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu bu il aprelin 9-da Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən itkin düşmüşdülər. Bu hadisədən, təxminən, bir ay sonra isə Ermənistan məhkəməsi Aqşin Bəbirovu 11,5 il müddətinə, iyunun 21-də isə əsir saxlanılan, guya "qətldə ittiham olunan" azərbaycanlı əsgər Hüseyn Axundovu 20 il müddətinə azadlıqdan məhrum etmişdi. Bu barədə yayılan son məlumatlarda isə dediyimiz kimi onların, əsasən də, Hüseyn Axundovun ömürlük həbs cəzasına məhkum edilməsi xəbəri xalqımızı sarsıtmışdı.

Uzun müddət sonra Azərbaycan və Ermənistanın sülh və humanizm prinsipləri çərçivəsində birgə məlumat yayması, həqiqətən də, gözlənilməz hadisə idi. Çünki dövlətimiz dəfələrlə düşmən ölkəni istər Qarabağın işğalı məsələsində, istərsə də başqa mövzularda sülh və tərəfdaşlığa dəvət etsə də, onlar işğalçılıq meyillərindən əl çəkməmiş, sülhdən boyun qaçırmışdılar. Lakin bu xəbərin, daha doğrusu, razılıq aktının dəqiqliyi bir daha düşmən ölkənin acizliyinin, məğlubiyyətinin nəticəsi olmaqla bərabər, həm də bir zamanlar sülh və tərəfdaşlıq təklifinə terror aktları ilə cavab verən Ermənistan hökumətinin, bu gün Azərbaycanın humanizm siyasətinə sığınmasının əyani sübutu idi.

32 erməni hərbçisinə qarşı 2 Azərbaycan əsgərinin təhvil verilməsi... Düzdür, ilk baxışdan 2 nəfərə qarşı 32 nəfərin təhvil verilməsi ədalət tərəzisinin gözündə taraz görünməyə bilər. Amma bunun mənəvi tərəflərini düşünəndə görürsən ki, yox, heç də elə deyil. Ən başda onu unutmayaq ki, xalqımız üçün böyükdən-kiçiyə bütün soydaşlarımızın həyatı, ən əsası isə onların azadlığı daha əzizdir, doğmadır. Vətən müharibəsində şəhid yoldaşlarını döyüş bölgəsindən çıxarmaq üçün canını təhlükəyə atan qəhrəmanlarımızı düşünəndə, həmçinin şəhid general-mayor Polad Həşimovun döyüş papağını müharibə zonasından götürmək üçün canını qurban verməyə hazır olan Vətən müharibəsi şəhidi İlkin Muradlını düşünəndə, Milli Qəhrəmanımız Mübariz İbrahimovun nəşini düşmən əlindən xilas etmək üçün sərhədləri aşan şəhid Fərid Əhmədovu düşünəndə xalqımızın iradəsində və Ali Baş Komandanımızın siyasətində bir həqiqəti görürük – iki var otuz ikidən daha artıq...

Hər iki əsgərimizin ailəsi üçün ümidlərin söndüyü anda Ali Baş Komandanımızın bu qələbəsi xalqımızı qürura, sevincə qərq etdi. Bu sevincin ən böyüyünü isə, təbii ki, əsgər Hüseyn Axundovun ailəsi yaşadı. İlk dəfə ömürlük həbsə məhkum edildiyi xəbərini eşidən və bu məlumatın alınmasından cəmi bir gün keçmiş oğlunun azad edilməsi xəbərini alan Şəlalə Axundova mediaya sevincini bu sözlərlə ifadə edib: "Oğlumun düşmən ölkə tərəfindən cinayətdə təqsirkar bilinməsi və ömürlük həbsə məhkum edilməsi çox ağır xəbər olmuşdu. Amma bu məlumatın üzərindən cəmi bir gün keçmişdi ki, cənab Prezidentimizin iradəsi ilə mənim oğlum Hüseyn Axundovla digər əsgərimiz Aqşin Bəbirovun da erməni əsirliyindən azad edilməsi məlumatını aldıq. Xəbəri aldığım anda sevincimdən özümü itirdim. Özümə gəldikdə isə başda şəhid ailələrimiz olmaqla qazilərimiz, Vətən müharibəsi iştirakçısı olmuş cəsur oğullarımız başımın üstündə idi. Mənə gözaydınlığına gəlmişdilər... Qüdrətli cənab Prezidentimizə minnətdarlığımı bildirirəm. Ümidlərimizin puç olduğu yerdə Onun qətiyyəti bizə ikinci dəfə həyat verdi".

Bəli, ümidlərin puç olduğu yerdə qalib xalq, qalib ordu, qalib rəhbər birliyindən doğan qətiyyət, əzmkarlıq, şücaət öz sözünü deyir, öz gücünü göstərir. Bax belə bir situasiya ilə üz-üzə olduqda məsələyə Ali Baş Komandan, Prezident cənab İlham Əliyev müdaxilə etdi. İllər öncə Ramil Səfərovun məsələsinə müdaxilə etdiyi kimi... Bu həm də qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Gününə qalib rəhbərin verdiyi ən böyük hədiyyə idi, ən gözəl təbrik mesajı idi. Qüdrətin, qətiyyətin, əzmkarlığın daim olsun, cənab Prezident, xalqımız sizə güvənir...

✍ **Məcid RƏŞADƏTOĞLU**

*Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlar çoxlarını, xüsusilə də Qərb dairələrini narahat edir. Əlbəttə ki, Azərbaycanın öz suveren ərazisində erməni separatizminə son qoyması və Ermənistan silahlı qüvvələrinin bölmələrini darmadağın etməsi 30 ildən çox davam edən haqsızlığı sonlandırdı. Amma gəl gör ki, hələ də uzun illər erməni işğalına göz yuman bəzi Qərb dairələri Azərbaycanın haqlı mübarizəsini həzm edə bilmirlər. Çünki Cənubi Qafqaza nüfuz etmək üçün bölgədə yeni reallıqlar yaradan güclü Azərbaycanla hesablaşmaq lazımdır. Bu da separatizm dəstəkçisi olan erməni lobbisinin pulları ilə dolananları qane etmir.*

# Ermənilərdən betər yalançı olan Avropa təmsilçisi



Hər birinin adı sadalananda irqçilik, işğalçılıq, müstəmləkəçilik, günahsız insanların, xüsusilə də uşaqların qətli yada düşən bəzi Qərb ölkələrinin "məzlum" obrazına bürünən erməni terrorçularını dəstəkləməsi heç də təəccüb doğurmur. Hətta Avropa İttifaqı kimi bir qurumun rəsmisinin açıqlamaları yalan və fırıldaqçılıqda erməniləri də geridə qoyur. Necə deyərlər, Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Aİ Komissiyasının vitse-prezidenti Jozep Borrellin yalan dolu açıqlamaları şeytanı belə təəccübləndirib. Çünki erməni sevdalısı yox, erməni lobbisinin pullarının aşiqi olan bu şəxs iddia edib ki, Azərbaycanın antiterror tədbirləri nəticəsində 150 min erməni sakin "evlərini" tərk edib. Aİ təmsilçisinin söylədiyi rəqəmin Ermənistanın hər vəchlə şişirdiyi rəqəmi dəfələrlə üstələməsi, hətta erməni rəsmilərini belə "şok"a salıb.

Mövzu ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki, "Aİ Komissiyasının vitse-prezidenti Jozep Borrellin Azərbaycana qarşı əsas təhdid mənbəyi olan və antiterror tədbirlərini şərtləndirən Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qeyri-qanuni mövcudluğu məsələsinə laqeyd yanaşması ölkəmizə qarşı açıq qərəzin nümunəsidir. Aİ tərəfinə məlumdur ki, bu ərazidən gedən ermənilərin 15 000 nəfəri Ermənistan ordusunun heyəti idi. Bununla yanaşı, Ermənistan tərəfi ərazidən getmiş ermənilərin sayının 100 min nəfər olduğunu qeyd etdiyi halda, Jozep Borrellin 150 min nəfərdən bəhs etməsi ciddi anlaşılmazlıq yaradır".

Aİ nümayəndəsini bu kimi təhrikçi və təxribatçı bəyanatlara son qoymağa çağıran Azərbaycan Xarici İşlər Nazirliyindən o da xatırladılıb ki, Jozep Borrellin bu kimi yanlış bəyanatları Ermənistanın etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində öz evlərindən didərgin düşmüş və haqları müdafiə olunmamış yüz minlərlə azərbaycanlıların hüquqlarına hörmətsizlikdir.

Siyasi şərhçilər də mövzuya münasibət bildirərkən qeyd edirlər ki, həmişə Azərbaycana qarşı qarayaxma kampaniyası aparanların yalanları "Qarabağın erməni əhalisi"nin sayı məsələsində üzə çıxır. Gülüş doğuran məqam odur ki, Ermənistanın Paşinyan hakimiyyəti bu rəqəmin 100 min olduğunu iddia etdiyi bir vaxtda ermənidən betər yalançı olan Jozep Borrel bu sayın üzərinə 50 min əlavə edib. Xatırlatmaq yerinə düşər ki, hətta separatçıların belə şişirdilmiş rəqəmi 120 min olub.

ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda Prezident cənab İlham Əliyevin dediyi kimi ***"Hətta ermənilərin özləri etiraf edirlər ki, bu cür təcrübəli Avropa diplomatı yalan danışır. Deyirlər ki, Qarabağ 100 min insan tərk edib, 150 min deyil. Yəni cənab Borrel bu tərzdə davam etsə, bir aydan sonra 200 min adam deyəcək. Ola bilər ki, cənab Borrel yuxular görür. Bu, tamamilə qəbuledilməzdir. Bu təkcə rəqəmlərlə bağlı manipulyasiya deyil, bu, Azərbaycana qarşı ittihamlardır, bizim etmədiyimizlə bağlı ittihamdır".***

Bir sözlə, Avropanın bəzi nüfuzlu dairələrində, eləcə də siyasi elitasında o qədər də ciddi adam kimi qəbul edilməyən, hətta irqçi çıxışlarına görə Avropa İttifaqına üzv olan ölkə liderləri tərəfindən irqçi, təhrikçi və kobud adlandırılan Jozep Borrellin anti-Azərbaycan çıxışı da ağ yalandan başqa bir şey deyil. Çox güman ki, hər şişirdilmiş rəqəmə görə erməni lobbisindən əməlli-başlı qazanc əldə edən Aİ təmsilçisi bu dəfə özünü çox pis yandırdı desək, yanılmarıq.

**Nəriman NƏCƏFOV**

## "Məhkəmə ekspertizasının təyin olunmasının xüsusiyyətləri" mövzusunda tədbir keçirilib

*Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Ədliyyə nazirliklərinin Məhkəmə Ekspertizası mərkəzlərinin əməkdaşlarının iştirakı ilə "Məhkəmə ekspertizasının təyin olunmasının xüsusiyyətləri" mövzusunda tədbir keçirilib.*

Audio və videoyazıların məhkəmə kriminalistik ekspertizası, məhkəmə-ballistik, məhkəmə-psixoloji, məhkəmə yanğın texniki, insan izlərinin tədqiqi, təhlükəsizlik texnikası, iqtisad, fonoskopiya və məhkəmə xətşünaslıq ekspertizası ixtisası sahələrini əhatə edən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Prokurorunun müavini, ədliyyə müşaviri Amil Rəhimov açaraq məhkəmə ekspertizasının müasir imkanları, tədqiqat obyektləri, təşkili və keçirilməsi ilə bağlı məlumat verib.



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin rəisi, baş ədliyyə müşaviri Rafiq Cəfərov "Ekspertizanın xüsusiyyətləri" mövzusunda çıxışında mərkəzin fəaliyyəti, keçirilən ekspertizalar barədə danışıb.

Tədbirdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin Əlyazma və səslərin ekspertizaları şöbəsinin rəisi, kiçik ədliyyə müşaviri Lətif Əliyev "Audio və videoyazıların məhkəmə kriminalistik ekspertizasının həll etdiyi məsələlər", Mühəndis-texniki ekspertizalar şöbəsinin böyük eksperti, I dərəcəli ədliyyə qulluqçusu Mövlud Şükürov "Yanğın texniki ekspertizası və əməyin təhlükəsizliyinin tədqiqi", Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri isə "Məhkəmə-xətşünaslıq ekspertizasının təyin olunmasının və həyata keçirilməsinin aktual problemləri və həlli yolları", "İstintaq fəaliyyəti zamanı əl-barmaq izlərinin əhəmiyyəti, onların hadisə yerində müəyyən edilməsi, götürülməsi və üzərində iz qalan və ya iz qalması ehtimal olunan obyektlərin kriminalistik qaydada düzgün qablaşdırılması", "Yol-nəqliyyat hadisələri ekspertizasının təyini ilə əlaqəli rast gələnən nöqsanlar" və digər mövzularda çıxış ediblər.

Tədbirdə əməkdaşları maraqlandıran suallar ekspertlər tərəfindən cavablandırılıb.

✍ **Nail ƏSGƏROV**

## 60 gənc Qubada təşkil olunan düşərgəyə qatılıb

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Quba rayonu ərazisində "Poliqon" gənclərin hərbi-vətənpərvərlik düşərgəsi təşkil olunub. Hərbi simulyativ formatda olan layihəyə əsasən ölkənin müxtəlif regionlarından olan gənclərin iştirakı ilə 3 gün müddətində müxtəlif təlimlər, idman yarışları, nəzəri və praktiki tapşırıqların icrası, Vətən müharibəsi iştirakçıları ilə görüşlər və digər tədbirlər nəzərdə tutulub.



Önəcki ölkəmiqyaslı düşərgələrdən fərqli olaraq muxtar respublikamız ilk dəfə rekord heyətlə təmsil olunur. Belə ki, düşərgəyə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin 3 nümayəndəsi və 60 gəncimiz qatılıb.

Proqrama uyğun olaraq iştirakçılar bu gün Fəxri Xiyabanı və Şəhidlər xiyabanını, o cümlədən Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, ehtiramlarını ifadə ediblər. Axşam düşərgənin yerləşdiyi ərazidə rəsmi açılış mərasimi təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Əkbərova Pərvanə Vilayət qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
**Baş redaktor müavini:** MƏMMƏD BABAYEV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1000. Sifariş № 713